

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 103 (21.255)

26 may 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Rəsmi xronika

Mayın 25-də Bakıda Birinci Avropa Oyunlarının Atletlər və Media kəndlərinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva açılışlarda iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Atletlər kəndində oldular.

Qeyd edildi ki, Birinci Avropa Oyunlarının keçirilməsi zamanı istifadə olunacaq Atletlər kəndi 383 min kvadratmetr sahəni əhatə edir. Atletlər kəndi oyunların keçiriləcəyi əsas idman komplekslərinə – Bakı Olimpiya Stadionuna, Milli Gimnastika Arenasına və Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxın olmaqla yanaşı, şəhərin müxtəlif istiqamətlərinə gediş-gəlişin rahat və sərfəli olduğu bir ərazidə yerləşir.

Azərbaycan Prezidenti İlham Əliyev Atletlər kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva atletlərin qalacağı binalarda yaradılan şəraitlə tanış oldular.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Media kəndinin açılışında iştirak etdilər.

Azərbaycan Prezidenti Media kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.



## Respublika Günü qeyd olunub



*Mayın 25-də Naxçıvan Müəllimlər İnstitutunda 28 May – Respublika Günü münasibətilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açaraq bildirib ki, 97 il bundan əvvəl qurulan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika olub. Bu demokratik respublikanın yaradılması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm rol oynayıb.

Qeyd olunub ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası yenidən müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalıb. Ancaq xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı daxili və xarici təhlükələrdən xilas edib, onun müstəqilliyinin əbədi və dönməz xarakter almasına səbəb olub. Ulu öndərin müəyyənləşdirdiyi siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" mövzusunda çıxış edərək bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan tarixinin xüsusi səhifəsini təşkil edir. Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini və mövcudluğunu yüksək qiymətləndirərək deyirdi: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycanın Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi".***

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı. Cümhuriyyətin ölkəmizin ərazi bütövlüyünü qorumağa yönəlmiş tədbirlərindən biri də Naxçıvan məsələsi idi. Çünki o dövrdə Naxçıvan ağır illər yaşayırdı. Həmin dövrdə Naxçıvan həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi düyün nöqtələrindən birinə çevrilmiş, ermənilərin Naxçıvana hücumları bu qədim diyarı çıxılmaz vəziyyətə salmışdı. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də, mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu həyata keçirməyə imkan vermirdi. Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inamla mübarizə aparırdı. Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli imkanları daxilində Naxçıvana köməklik edir, onun Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir, qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti hərbi-siyasi vasitələrdən istifadə edərək ölkənin ərazi bütövlüyünü qorumağa çalışıb, Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə yol verməyib, bu istiqamətdə ingilislər və amerikalılarla diplomatik danışıqlar aparıblar. Lakin bütün bunlarla yanaşı, özləri çətin ictimai-siyasi və hərbi vəziyyətlə qarşılaşdıqlarından bir sıra hallarda məqsədlərinə tam nail ola bilməyiblər. Yerli əhalinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan ərazisi Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılıb.

Vurğulanıb ki, 1918-1920-ci illər Naxçıvan üçün çətin dövr kimi xarakterizə olunsa da, Naxçıvan əhalisinin inadlı müqaviməti və qardaş Türkiyənin qətiyyətli mövqeyi ermənilərin və onların havadarlarının Naxçıvanla bağlı planlarını alt-üst edib. Naxçıvan diyarının tarixi taleyini, yəni onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmaq imkanlarını Moskva və Qars müqavilələri reallaşdırıb. Bu beynəlxalq müqavilələr Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi kimi tanınmasında çox böyük rol oynayıb.

1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Naxçıvanın muxtariyyət statusunun yenidən gündəmə gətirilməsi və nəticədə, bu qədim diyarın təhlükəsizliyinin qorunmasında mühüm əhəmiyyət kəsb edib. 1993-cü il iyunun 15-də dahi şəxsiyyətin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı isə müstəqilliyimizin möhkəmləndirilməsinə, ölkəmizin hərtərəfli inkişaf yoluna çıxmasına imkan yaradıb.

Naxçıvan Müəllimlər İnstitutunun üçüncü kurs tələbəsi Jalə Mehdiyeva və institutun müəssisədənkənar Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədri Tamara Baxşəliyeva çıxış edərək bildiriblər ki, xalqımız həmişə azad və müstəqil dövlətin vətəndaşı olmaq ümidini yaşadıb və bu yolda çətin mübarizələrdən keçib. Ötən əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etsə də, bu müstəqillik çox qısa zamanda itirilmək təhlükəsi ilə üz-üzə qalıb. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələblərindən sonra hakimiyyətə qayıdışı qanımız bahasına əldə etdiyimiz müstəqilliyimizin qorunub saxlanılmasını təmin edib. Ulu öndər ən böyük çətinliklər hesabına olsa da, müstəqilliyimizin möhkəmləndirilməsinə, onun sarsılmaz və əbədi olmasına nail olub. Müstəqilliyimizin bəhrələridir ki, indi Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib.

Sonda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı İdarə Heyətinin iclası keçirilib. 70 nəfər gənc partiya sıralarına qəbul edilib. Partiya sıralarına yeni qəbul olunmuş üzvlərə vəsiqələr təqdim olunub.

**Səbuhi HƏSƏNOV**

## Növbəti seminar-müşavirə Şahbuz rayonunda keçirilib

***Dünən Şahbuz Şəhər Mərkəzində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı keçirilən seminar-müşavirəni giriş sözü ilə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açıb.***



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, Ədliyyə Nazirliyinin rayon və şəhər qeydiyyat şöbələri ilə yanaşı, inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən də doğumun, nikahın bağlanmasının və ölümün qeydiyyatı aparılır. Ötən dövr ərzində muxtar respublikanın bütün rayonlarında icra nümayəndələri üçün seminar təşkil edilib, onlar müvafiq normativ-hüquqi aktlardan çıxışlarla təmin olunublar. İcra nümayəndələri tərəfindən doğum, nikah və ölümün qeydiyyatının aparılması üçün müvafiq metodik köməklik göstərilməsi və hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi daim diqqətdə saxlanılıb.

Şahbuz rayonundakı inzibati ərazi dairələri üzrə nümayəndəliklər tərəfindən doğumun, nikahın, ölümün qeydiyyatı və bir sıra notariat hərəkətləri aparılır ki, bu əməliyyatlar 21 icra nümayəndəliyi tərəfindən rəsmiləşdirilir.

"2009-2014-cü illər ərzində Şahbuz rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndələri üçün 16 dəfə seminar təşkil olunub. Bütün inzibati ərazi dairəsi üzrə nümayəndəliklər müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin edilib", – deyən nazir vurğulayıb ki, Şahbuz rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 12 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün icra nümayəndələrinə hərtərəfli metodik kömək göstərilib. Lakin bütün maarifləndirmə tədbirləri və yoxlamalara baxmayaraq, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı sahəsindəki fəaliyyətlərində nöqsanlar qalmaqdadır. 2014-cü ildə və 2015-ci ilin I rübü ərzində keçirilən yoxlamalar zamanı Ağbulaq, Külüs, Qızıl Qışlaq, Daylaqlı, Kolanı, Kükü, Keçili, Gömür və Şahbuzkənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin fəaliyyətində nöqsanlar aşkar edilib. Hər bir icra nümayəndəsi fəaliyyətini qanunvericiliyə uyğun təşkil etməli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin, notariat haqqında qanunun və kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə əməl etməli və vətəndaşlıq vəziyyəti aktları qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə də nikah qeydiyyatı zamanı müraciət etmiş şəxslərin iştirakı təmin edilməlidir.

Seminar-müşavirəyə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev yekun vurub.

**Səbuhi HÜSEYNOV**

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində növbəti açıq ürək əməliyyatları aparılıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir. Bu sahədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanası ilə qarşılıqlı əməkdaşlıq artıq ənənə halını alıb. Xəstəxananın Ürək-damar xəstəlikləri şöbəsinin heyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə 2015-ci ilin yanvar-aprel aylarında 65 nəfərdə müayinə, 44 nəfərdə açıq ürək əməliyyatı aparıb.

Bu günlərdə kardiocərrah Seymur Musayevin rəhbərliyi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində olan heyət əvvəlcədən qeydiyyata götürülmüş risk faktorlu xəstələri müxtəlif kardioloji müayinələrdən keçirib, kardioloji ambulator müayinə və müalicələr zamanı xəstələrə tibbi məsləhət və tövsiyələr, 25 nəfər üzərində isə açıq ürək əməliyyatı aparılmasına göstəriş verilib.

Ötən şənbədən başlayaraq 16 nəfər kardioloji xəstə üzərində açıq ürək-aortakoronar şuntlama, qulaqcıqlararası defektin aradan qaldırılması, süni qapaqcıqların qoyulması, botal axacağın bağlanması kimi mürəkkəb əməliyyatlar aparılıb. Heyət xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırır, ürək xəstəliyi aşkarlanan xəstələrin sonrakı müayinə və müalicələrini diqqət mərkəzində saxlayır.

Cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimləri ilə yanaşı, əməliyyat, reanimasiya, palata tibb bacıları da yaxından iştirak edirlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Muzeylərə kollektiv gedişlər davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada muzeylərə kollektiv gediş təmin olunub. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.***





Mayın 23-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, "Kapital Bank" ASC-nin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin və "Naxçıvanbank"ASC-nin əməkdaşları Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Burada onlara məlumat verilib ki, görkəmli ictimai-siyasi xadim, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ümummilli lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş ulu öndərimizin adını daşıyan muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 fevral 1999-cu il tarixli Sərəncamı ilə yaradılıb və 10 may 1999-cu ildə fəaliyyətə başlayıb. Muzeydə nümayiş etdirilən eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ümummilli liderimizin təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. Muzeydə nümayiş etdirilən eksponatlar ümummilli liderimizin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, onun mənalı həyatı, zəngin və çoxşaxəli ömür yolu barədə faktların gənc nəslə çatdırılmasında böyük rol oynayır.

Həmin gün Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları Ədəbiyyat Muzeyində olublar. Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurası və "Şərq qapısı" qəzeti redaksiyasının əməkdaşları Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Komplekslərində olublar.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin və struktur qurumlarının kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyini ziyarət ediblər. Dövlət Baş Sığorta Agentliyi, Dövlət Energetika Agentliyi, Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri Cəmşid Naxçıvanskinin ev-muzeyində, Dövlət Sosial Müdafiə Fondunun və Mərkəzi Seçki Komissiyasının kollektivləri isə Dövlət Bayrağı Muzeyində olublar. "Naxçıvanqaz" İstehsalat Birliyinin və Satınalmalar üzrə Dövlət Agentliyinin kollektivləri isə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət ediblər.

Həmin gün şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da müxtəlif muzeyləri ziyarət ediblər.

**S.HÜSEYNOV**

# İməciliklərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir



Muxtar respublikamızda ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır. Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir, yeni yaşıllıqlar salınır, ağac və gül kolları əkilir.

Mayın 23-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Həmin gün Naxçıvan şəhərinin sakinləri Babək rayonunun Nəzərabad kəndi yaxınlığındakı terrasda, müəssisə və təşkilatların ərazilərində yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şərur rayonunun sakinləri Gümüşlü kənd tam orta məktəbinin və müəssisələrin ərazilərində əkilmiş ağaclara aqrotexniki qulluq göstərmişlər.

İməcilik günü babəklilər Naxçıvan-Ordubad magistral yolunun Şəkərabad kəndindən keçən hissəsində, qəsəbə və kəndlərin yaşıllıqlarında çalışmışlar.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Naxçıvan-Ordubad magistral yolunun Aşağı Əylis kəndi ərazisində, Qazi massivində, Mərkəzi Xəstəxananın həyətində, qəsəbə və kəndlərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Culfalılar Naxçıvan-Ordubad magistral yolunun kənarında əkilmiş ağaclara qulluq göstərmiş, rayon mərkəzindəki 1 nömrəli tam orta məktəbin yaşıllıq sahəsində 50 ədəd meyvə ağacı əkmişlər.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarlarında, rayon Elektrik Şəbəkəsinin ətrafında və Şahtaxtı kəndindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şahbuzlular rayon mərkəzində yeni tikilən uşaq bağçasının həyətində və Şahbuz şəhərində yaşıllıqlara 1280 ədəd gül kolu və 350 ədəd həmişəyaşıl ağac əkmişlər.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun sağ hissəsində, Qaraağac kəndində, Mərkəzi Xəstəxananın həyətində və rayonun girişində yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

***Dünən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

# Mülki Müdafiə Alayında andiçmə mərasimi



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, üçrəngli bayrağımız meydana gətirilib. Sonra gənc əsgərlər Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Mərasimdə Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov hərbi andın əhəmiyyətindən danışıb. Qeyd olunub ki, hərbi and içən əsgər təntənəli surətdə vəd edir ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanını və canını əsirgəməyəcəkdir. Hərbi anda sadiq qalmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, baş leytenant Dönməz Məmmədov və baş leytenant Ramil Quliyev gənc əsgərləri bu əhəmiyyətli gün münasibətilə təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Valideynlər adından çıxış edən Təvəkkül Quliyev bu günün onda böyük qürur hissi doğurduğunu deyib, bütün valideynlərin vətənin müdafiəçiləri olan övladları ilə fəxr etdiyini bildirib.

Gənc əsgərlər adından çıxış edən Məhəmməd Cəlilov və Qoşqar Quliyev nümunəvi xidmətləri ilə hərbi hissənin adını daim yüksək tutacaqlarını, baş verə biləcək fövqəladə hallar zamanı insanlardan gələni əsirgəməyəcəklərini bildiriblər.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov gənc əsgərlərə və onların valideynlərinə xoş arzularını çatdırıb.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

**Xəbərlər şöbəsi**

*Elektron cəmiyyət*

# Elektron imza Naxçıvan Muxtar Respublikasında necə tətbiq olunur?

***Elektron imza (e-imza) elektron məkanda şəxsin kimliyini müəyyənləşdirmə vasitəsidir. Elektron imza anlayışı ümumi xarakter daşıyır. İnsanların əl imzalarının rəqəmli çeviricilərdən keçirilmiş barmaq izlərinin, səs kimi bioloji əlamətlərinin və sair elektron halda kimliklərinin təsdiq olunmasını təmin edən vasitədir. Elektron imza elektron sistemdə imzanın malik olduğu bütün işləri yerinə yetirən, elektron sertifikat vasitəsilə bir elektron məlumatına əlavə edilən və məlumatı göndərəni təyin edən rəqəmsal koddur. Elektron imza sənədin həqiqiliyini, bütövlüyünü və dəyişilməzliyini təmin etməyə imkan verir. E-imza ilk dəfə Uildfild Diffi və Martin Xellman tərəfindən 1976-cı ildə təklif edilmişdir. 1977-ci ildə ilk kriptoqrafiya alqoritmi RSA yaradılmışdır.***

Kompüter texnologiyalarının inkişaf etməkdə olduğu dünyada informasiya təhlükəsizliyi getdikcə daha vacib məsələ kimi ortaya çıxmışdır. Məlumat mübadiləsi zamanı ötürülən informasiyanın təhlükəsizliyinin qorunması çox mühümdür. Dövlət orqanları ilə müxtəlif əməliyyatlar həyata keçirərkən vətəndaşların şəxsi məlumatlarını üçüncü tərəfin ələ keçirməməsi üçün təhlükəsiz şəbəkələr getdikcə daha çox yayılır. Bundan başqa, elektron əməliyyatların həyata keçirilməsi zamanı vətəndaşın kimliyinin ayırd edilə bilməsi də təhlükəsizlik qədər vacib məsələdir. Bütün qeyd olunanlar isə elektron imzanın zəruriliyini ortaya çıxarır.

Elektron imza ilə imzalanmış elektron sənədlər əl imzası ilə imzalanmış və möhürlənmiş sənədlərə bərabər tutulur. Bu gün elektron hökumətin əsas atributlarından sayılan elektron imza Azərbaycanda da uğurla tətbiq edilməkdədir.

Bəs elektron imza Naxçıvan Muxtar Respublikasında necə tətbiq edilir? Elektron imza üçün müraciət edən vətəndaşlar varmı? Elektron imzanın faydası nədir?

Bu suallarla "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Məlumat hesablama mərkəzi şöbəsinin müdiri Məhərrəm Məmmədova müraciət etdik.

***– Məhərrəm müəllim, elektron imza Naxçıvan Muxtar Respublikasında necə tətbiq edilir?***

–Naxçıvan Muxtar Respublikasında elektron imzadan hal-hazırda müvafiq qurumlar tərəfindən tələb olunan elektron sənədlərə öz şəxsi imzasını qoyub təqdim etmək, elektron hökumət portalına autentifikasiya olmaq və orada göstərilən xidmətlərdən yararlanmaq üçün istifadə edilir.

Dövlət orqanları və hüquqi şəxslər üçün isə əmək bildirişlərinin elektron hökumət portalına daxil edilməsi öndə gələn vəzifələrdən biridir. Belə ki, hər bir idarə və təşkilatın rəhbəri tərəfindən təyin olunan vəzifəli şəxs elektron hökumət portalına daxil olaraq öz təşkilatı daxilindəki işçilərini portala müvafiq struktur üzrə vəzifəsinə uyğun daxil edir və vəzifə dəyişikliyini burada reallaşdırır. Əgər işdən çıxan varsa, işinə xitam verir. Hər bir vəzifəli şəxs öz imza kartı daxilində olan möhür və imza hüququndan istifadə etməklə vaxt itkisi olmadan və idarəyə qayıtmadan istənilən yerdən istənilən sənədi imzalayıb göndərə bilər. Bunun üçün, sadəcə, kompüter internetə qoşulmalı və imza kartı və kart oxuyucusu yanında olmalıdır.

Dövlət və özəl strukturlarda informasiya texnologiyalarının geniş yayılması nəticəsində hər bir təşkilat öz daxili sənəd dövriyyəsində e-imza kartlarından istifadə edə bilər. Elektron imza adi imzanı tam əvəz edir. Əgər bir sənəd elektron imza kartı ilə imzalanıb göndərilib və bu sənədə lazımı dəyişiklik olunubsa, bu, həmin sənədin yoxlanma prosesi zamanı üzə çıxır və sənəd etibarsız sayılır. E-imza kartının xüsusiyyətlərindən biri də bütünlükdür. Yəni imza kartı ilə imzalanmış sənəd başqaları tərəfindən dəyişdirilməyib, silinməyib, ya da yenisi ilə əvəz olunmayıb. Beləliklə, e-imza imzalanmış sənədin sahibinə məxsusluğunu bildirir.

***– Elektron imza üçün müraciət edənlər varmı?***

– E-imzadan istifadə hələ geniş yayılmadığından vətəndaşlar tərəfindən müraciətlər az olur. Onlardan tələb olunan sənədlər olur və lazımlı suallar cavablandırılır, e-imzadan istifadə qaydaları haqqında məlumat verilir. Lazım olan sənədləri bizə təqdim etdikdən sonra üç (3) iş günü ərzində vətəndaşa məxfi pin kod və elektron imza kartı ilə birlikdə 2 sertifikat zərflə birlikdə təqdim olunur. Əlavə suallar və ya hər hansı texniki bir problem olduğu təqdirdə texniki heyət tərəfindən xidmət göstərilir.

***– Elektron imzanın faydası nədir?***

– Ən birinci faydası vaxta qənaətdir. Bir əl imzasına bərabər tutulan və ondan daha etibarlı sayılan elektron imzadan istifadə edən şəxs həm vaxtına qənaət etmiş olur, həm də müasir informasiya texnologiyalarından istifadə edərək işini asanlaşdırır. Bir şəxs e-imza kartından istifadə etməklə olduğu yerdən başqa bir yerə getmədən sənədi imzalayıb lazım olan yerə göndərir və vaxtına qənaət edir.

Yüksək texnologiyalar dövrü adlandırılan XXI əsrdə postsənaye ölkələrinin iqtisadiyyat və infrastrukturunun səviyyəsinin universal ölçüsünün informasiya-kommunikasiya texnologiyalarının təşkil etməsi başlıca amillərdən biridir. Bildiyi kimi, dünya sivilizasiyasının sürətli inkişafında informasiya texnologiyaları əhəmiyyətli rola malikdir. Hər bir xalqın inkişafında, zamanla ayaqlaşmasında İKT böyük rol oynayır.

**Nərgiz İSMAYILOVA**

# Naxçıvanda “Bakı-2015” Birinci Avropa Oyunlarına dəstək spartakiadası keçirilib

***Mayın 25-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində “Bakı-2015” Birinci Avropa Oyunlarına dəstək spartakiadası keçirilib. Muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən spartakiada yüngül atletika, şahmat, basketbol və stolüstü tennis idman növlərini əhatə edib.***





Spartakiadanın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov “Bakı-2015” Birinci Avropa Oyunlarına dəstək məqsədilə keçirilən idman yarışının iştirakçılarını salamlayaraq, onlara uğurlar arzuladı.

Bildirildi ki, dövlət gənclər və idman siyasəti yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müəyyənləşdirildi. Bu sahədə aparılan məqsədyönlü siyasət nəticəsində yeniliklərə imza atıldı, ölkəmizdə böyük idman infrastrukturu yaradıldı. Qısa zamanda respublikamız dünyada idman ölkəsi kimi tanındı.

Azad Cabbarov qeyd etdi ki, Azərbaycan artıq beynəlxalq idman tədbirlərinin keçirilməsində böyük təcrübə əldə edib. Bakıda, eləcə də ölkəmizin digər şəhər və rayonlarında idmanın müxtəlif növləri üzrə Avropa və dünya çempionatları keçirilib. Məhz bütün bu faktları – idmançılarımızın nailiyyətlərini, mövcud idman infrastrukturunu, dövlət tərəfindən idmana güclü dəstəyi və əlbəttə, ölkəmizin sürətli iqtisadi inkişafını nəzərə alan Avropa Olimpiya Komitəsi Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsinə qərar verib.

Muxtar respublikada idmanın inkişafından danışan nazir dedi ki, artıq Naxçıvanda bədən tərbiyəsi və idmanla məşğul olmaq gündəlik həyat tərzinə çevrilməkdədir. 2015-ci il fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıqların icrasına əsasən, yeniyetmə və gənc qızların, fiziki sağlamlığı məhdud insanların idmana cəlbi istiqamətində ardıcıl işlər görülüb. Bədii gimnastika bölməsi yaradılıb, müxtəlif idman növləri üzrə bölmələrə yeniyetmə və gənclərin cəlb olunmasında artım müşahidə olunub.

Təhsilə və idmana göstərilən dövlət qayğısından danışan Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev bildirdi ki, bütün sahələrdə quruculuq və inkişafın geniş vüsət aldığı muxtar respublikada müasir dövrün tələblərinə uyğun həyata keçirilən məqsədyönlü siyasət nəticəsində təhsilin, eləcə də idmanın inkişafı daim diqqətdə saxlanılmaqdadır. Muxtar respublikada uşaq və gənclərə göstərilən qayğının bariz nümunəsidir ki, son 10 ildə 150-dən çox müasirtipli, hər cür maddi-texniki bazaya malik, informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş məktəb binaları tikilib və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Həmin məktəblərdə idman zalları və açıq idman qurğuları yaradılıb.

Qeyd olundu ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar bu ilin aprel və may ayları ərzində müxtəlif idman federasiyaları ilə birgə idmanın bir sıra növləri üzrə yarışlar keçirilib. Ənənəvi olaraq keçirilən həmin yarışlarda muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər. Bununla yanaşı, mayın 1-dən 10-dək ulu öndərin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar keçirilən “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalında 13 ölkənin şahmatçıları ilə yanaşı, muxtar respublikanın 80 məktəblisi də iştirak edib.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri dedi ki, bundan sonra da şagirdlərimiz respublika və beynəlxalq səviyyəli idman yarışlarında uğurlara imza atacaqlar. Muxtar respublikada keçirilən spartakiadanın daha bir məqsədi də idmanın kütləviliyinə nail olmaq və bacarıqlı idmançıların üzə çıxarılmasıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxışında qeyd etdi ki, əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan gənclərə, idmana qayğı siyasəti bu gün böyük uğurlarla davam etdirilir. Məhz bu siyasətin nəticəsidir ki, respublikamızda, o cümlədən Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı təmin olunub, bu sahədə zəngin qanunvericilik bazası və infrastruktur yaradılıb. Azərbaycan idmançıları hər il beynəlxalq yarışlarda, olimpiya oyunlarında daha böyük nailiyyətlər qazanırlar. Bu il ölkəmizin “Bakı-2015” Birinci Avropa Oyunlarına ev sahibliyi etməsi də Azərbaycanın dünyada qazandığı idman nüfuzunun nəticəsidir.

“Ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin tərkib hissəsi kimi bu gün Naxçıvan Muxtar Respublikasında artıq gənc idmançılar nəsli yetişib, idman ustaları formalaşıbdır. Naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda təmsil olunur və uğurlara imza atırlar”, – deyən Rəhman Məmmədov qeyd etdi ki, son 20 il muxtar respublikanın bədən tərbiyəsi və idman tarixində mühüm mərhələ təşkil edir. Bu dövr ərzində muxtar respublikada idmanın maddi-texniki bazası xeyli möhkəmləndirilib. Müasir idman infrastrukturunun formalaşdırılması muxtar respublikada çoxsaylı beynəlxalq yarışların keçirilməsinə də şərait yaradıb. Hal-hazırda muxtar respublikada 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, 1 Şahmat Mərkəzi, 6 Uşaq-gənclər şahmat məktəbi, 9 Uşaq-gənclər idman məktəbi, Stend və Sportinq Atıcılıq Mərkəzi, eləcə də stadionlar, idman zalları və sadə idman qurğuları, 12 idman federasiyası fəaliyyət göstərir. Son illər 40-a yaxın idman obyekti istifadəyə verilib, ümumtəhsil məktəblərində ən müasir standartlara cavab verən idman zalları yaradılıb.

Sonra Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov, Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədri Mahir Əliyev, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev çıxış edərək bildirdilər ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi idman siyasəti 1997-ci ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra yeni mərhələyə qədəm qoyub, idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlər həyata keçirilib. Nəticədə, Azərbaycan idman yarışlarının keçirildiyi beynəlxalq mərkəzə çevrilib. Naxçıvan Muxtar Respublikasında da əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna mühüm əhəmiyyət verilir. Muxtar respublikada aparılan idman siyasətinin kökündə idmanın kütləviliyinə nail olmaq, onu inkişaf və təbliğ etdirmək, sağlam nəsil yetişdirmək dayanır.

Tədbirin bədii hissəsində Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Bədii gimnastika bölməsinin idmançılarının nümunəvi çıxışları oldu. Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin və Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqs qrupunun ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Sonra idman yarışlarına start verildi.

Yüngül atletikanın 100, 200, 400, 800 və 1500 metr məsafələri üzrə keçirilən yarışlarda 9 komanda (hər komandanın heyətində 5 qız, 6 oğlan) və 99 atlet finiş xəttini birinci sırada başa vurmağa çalışıb. Oğlanların mübarizəsində 100 metrdə Zamin Quliyev (Şərur), 200 metrdə Elxan Həsənli (Şahbuz), 400 metrdə Elcan Mustafazadə (Sədərək), 800 metrdə Rəsul Yerdələn (Sədərək) və 1500 metr məsafədə Ayaz Hacıyev (Şahbuz) bütün rəqiblərini geridə qoyaraq qalib adını qazandılar. Qızlar arasında isə Gülü Cəfərova (Kəngərli), Nərmin Rüstəmli (Şahbuz), Gülayə Cəfərova (Sədərək) və Zülfiyyə Mehdiyeva (Sədərək) finiş xəttinə hamıdan tez çatdılar.

Uzununa tullanma növündə isə oğlanlar arasında Qürbət Babayev (Ordubad), qızların mübarizəsində isə Səkinə Zamanova (Ordubad) qalib oldular. Spartakiadanın yekun nəticəsinə əsasən, bu növdə komanda hesabında “Ordubad” komandası bütün rəqiblərini qabaqladı. Şahbuz atletləri ikinci, Naxçıvan şəhərinin atletləri isə üçüncü yerə layiq görüldülər.

“Bakı-2015” Birinci Avropa Oyunlarına dəstək spartakiadasının basketbol növü üzrə yarışının qalibi “Naxçıvan” komandası oldu. Onlar finalda “Ordubad” komandasını 36:24 hesabı ilə məğlub etməyi bacardılar. Bu növ üzrə qızların mübarizəsində isə meydanı qalib kimi “Culfa” komandası tərk etdi. Qeyd edək ki, spartakiadada 7 oğlan, 3 qız basketbol komandası mübarizə apardı.

Naxçıvan Şahmat Mərkəzində isə zəka sahibləri birincilik uğrunda qüvvəsini sınayırdı. Yarışın yekun nəticəsinə əsasən, oğlanların mübarizəsində Ordubad şahmatçısı Kamil Rzayev qalib adını qazandı. O, ikinci və üçüncü pillədə qərarlaşan Pərviz Qasımov və Toğrul Həsənzadəni qabaqladı. Qızların mübarizəsində isə Babək rayonunun təmsilçisi Aynur Kətanova birinci yerə layiq görüldü. Şahbuz şahmatçısı Qəndab Cəfərli ikinci, culfalı zəka sahibi Aybəniz Hüseynova isə üçüncü oldular.

Spartakiadanın planına daxil olan stolüstü tennis üzrə yarışda 8 komandanın 48 idmançısı (hər komandanın heyətində 3 qız, 3 oğlan) qalib adı uğrunda mübarizə apardı. Qızların mübarizəsində Şərur tennisçisi Xurşud Mahmudova bütün rəqiblərinə qalib gələrək spartakiadanın birincisi oldu. Digər iki pillədə isə Selcan Hüseynova (Sədərək) və Nurcan Məmmədova (Şərur) qərarlaşdılar. Oğlanlar arasında yarışın qalibi adını isə Şərur idmançısı Nağı Nağızadə qazandı. Ordubad tennisçisi Sunay Həsənov ikinci, şərurlu həmkarı Mehdi Nəzərov isə üçüncü oldular.

Sonda hər növdə qalib gələn idmançılara təşkilatçılar tərəfindən diplomlar və hədiyyələr təqdim edildi.

**✍ Ceyhun MƏMMƏDOV**

# “Xoş gəldin, körpə”

*Bu mövzuda dördgünlük təlimlər keçirilir*

***Ötən şənbədən başlayaraq Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) Bakı Proqram Koordinasiya Ofisi tərəfindən Naxçıvan Doğum Mərkəzində “Xoş gəldin, körpə” ana-uşaq sağlamlığını dəstəkləmə layihəsi çərçivəsində 4 günlük təlimlərə start verilib.***

Layihə Azərbaycan Tibb Universiteti, Gəncliyə Yardım Fondu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Beynəlxalq Həkimlər İttifaqının dəstəyi ilə həyata keçirilir.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova TİKA ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində görülən işlərdən danışıb. Bildirib ki, bu gün muxtar respublikanın səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yenidən qurulması dövlətimizin diqqət mərkəzində saxlanılır. Tibb müəssisələrinin bilikli kadrlarla təmin olunması bu gün qarşıda duran başlıca vəzifələrdən biridir. Bu sahədə qardaş Türkiyə Respublikasının universitet və səhiyyə müəssisələri, o cümlədən TİKA ilə təcrübə mübadiləsi mühüm əhəmiyyət kəsb edir.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Erşen ana və uşaq sağlamlığının qorunması və körpə ölümlərinin azaldılmasının dəstəklənməsi məqsədilə 2014-cü ildən etibarən başlanan “Xoş gəldin, körpə” ana-uşaq sağlamlığını dəstəkləmə layihəsinin Naxçıvanda uğurla icra olunacağına əminliyini ifadə edib.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakıdakı koordinatorunun müavini İsmayıl Gurlek bildirib ki, dünyada körpə ölümü göstəricisinin azaldılması inkişafın göstəricisi hesab edilir. Bütün dünyada hər min doğulan uşağın ölüm göstəricisinin 7 faiz olması bir standart olaraq qəbul edilib. İnkişaf etmiş ölkələrdə bundan yuxarı körpə ölümü olmamalıdır. Layihə çərçivəsində həm həkimlərə, həm də digər tibb işçilərinə təlimlər keçirilir. Uğurlu iştirakçılardan bəziləri fəaliyyətini hətta təlimçi olaraq davam etdirir.

Türkiyəli təlimçi-mütəxəssislərdən professor-doktor Murad Elevlinin, Merih Çetinkayanın, Dilek Burbutun çıxışlarında vurğulanıb ki, perinatal və neonatal ölüm körpə ölümünün əsas strukturunu təşkil edir. Layihənin məqsədi onların aradan qaldırılmasına yardımçı olmaqdan ibarətdir.

Sonra “Xoş gəldin, körpə” ana-uşaq sağlamlığını dəstəkləmə layihəsinin ilk məşğələsi keçirilib. Məşğələ “Uşaqların ana südü ilə qidalandırılması” mövzusuna həsr olunub. Tibb bacısı və mamaların iştirakı ilə keçirilən məşğələdə elektron lövhə, mulyaj və digər əyani vasitələrdən istifadə edilib.

Mayın 24 və 25-də Doğum Mərkəzi və Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim neonatoloqları və tibb bacıları üçün “Neonatal reanimasiya” mövzusunda paralel iki ayrı təlim proqramı təşkil edilib. Təlim proqramlarının sonunda Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən həyata keçirilən “Xoş gəldin, körpə” ana və uşaq sağlamlığına dəstək layihəsinin iştirakçılarına sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Tələbə Qəbulu üzrə Dövlət Komissiyası may ayının 24-də 2015-2016-cı tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən əvvəlki illərin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.*

# Əvvəlki illərin məzunları üçün I və IV ixtisas qrupları üzrə ali məktəblərə qəbul imtahanları olub



Muxtar respublikada Naxçıvan şəhər 7 və 14 nömrəli tam orta məktəblərdə keçirilən və 801 abituriyentin iştirak etdiyi imtahanlara 6 imtahan rəhbəri və 80 nəzarətçi-müəllim cəlb olunub. İmtahan saat $11^{00}$-də başlanıb və 3 saat davam edib.

İmtahan prosesinin idarə olunması üçün operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi bütün binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub.

İmtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün lazımi şərait yaradılıb.

Qeyd edək ki, imtahan vermiş abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri TQDK-nın internet saytında yerləşdiriləcək. Abituriyentlər imtahan nəticələri barədə məlumatı həmçinin mobil telefonla iş nömrələrini 7727 nömrəsinə göndərməklə öyrənə biləcəklər.

**Xəbərlər şöbəsi**

*2015-ci il Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilib. Bu il tarixən formalaşan təsərrüfatçılıq ənənələrinin inkişaf etdirilməsi qarşıya məqsəd qoyulub. Ənənəvi əkinçilik təsərrüfatı, xüsusən taxılçılıqla bağlı əkinçilik ənənələrinə aid yazı hazırlamaq qərarına gəldik.*

*Kənd təsərrüfatı ili*

# Əkinçilik təsərrüfatı: *ənənəvilik*

Qədim Naxçıvanımız taxılçılıq ənənələrinin yarandığı ilk ərazilərimizdən biri olmuşdur. Arxeoloji materiallara söykənərək demək olar ki, Naxçıvanda hələ 8-9 min il bundan əvvəl əkinçilik mədəniyyəti yaranmış və inkişaf etməyə başlamışdır. Kültəpənin Eneolit təbəqəsindən həm yabanı, həm də mədəni taxıl dənlərinin tapılması Naxçıvanın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri olduğunu göstərir.

Əkinçiliklə bağlı təqvim adətlərinin, inamların və mərasimlərin başlanğıcı Novruz bayramından hesab olunur. Toplanmış etnoqrafik çöl materiallarından aydın olur ki, xalqımız əkinə (yazlıq) çıxmaq üçün hazırlıq işlərinə kiçik çillədən başlayırmış. Əkin üçün lazım olan alətlər itilənib hazırlanar, qoşquya qoşulacaq heyvanlar xüsusi bəslənərmiş. Əkiləcək məhsulların toxumları çeşidlənib seçilərmiş. Ömrünü torpağa bağlayan əkinçilər səpin üçün ayrılmış toxumu yeməz, onu müqəddəs hesab edərmişlər. Səpiləcək toxum haram olmamalı idi, çünki "toxup haram götürməz" inancı yaz əkininin əsas şərtlərindən imiş.

Novruz bayramından sonra xalq əkin sahəsinə çıxırdı. Xalq deyiminə görə, "karnabıd" (qarın soyuğuna deyirlər) bitməmiş əkinə çıxmazlar. Novruz bayramından sonrakı 15 gün əkinçi üçün qorxulu hesab edilərmiş. Çünki bu günlərdə güclü boran olar. Xalq arasında da bunu "qarğa boranı", yaxud "çalağanın yumurtasının çatlayan dövrü" adlandırarmışlar. Belə bir el deyimi də var ki, çalağanın yumurtası çatlamayınca istilər düşməz. Əgər bu dövr bitməmiş yazlıq toxum (arpa, buğda) səpilsə, onu soyuq alar.

Elə ki bu dövr başa çatdı, sonra taxıl əkini üçün şuma çıxardılar. Şuma çıxanda deyərdilər ki, artıq torpaq keşdəndi (bəzən "çeşdəndi" də deyirlər), əkinə çıxmağın vaxtıdır. Topladığımız materiallara görə, torpağın keşə gəlməsini bilmək üçün torpağı ələ alıb sıxar, sonra yerə salardılar. Əgər torpaq dağılsa, deyərlər, "artıq yetişib". Digər müşahidələrə görə, Culfa bölgəsində İlanlı, Cəhriçay hövzəsində Qaraquş, Şahbuz bölgəsinin bəzi kəndlərində, Ordubad bölgəsinin bəzi yerlərində və Kəmki dağının başında qar varsa, əkinə çıxsan, taxıl dən bağlayar, yox əgər qar əriyibsə, dən olmaz, ot olar. Başqa bir müşahidəyə görə isə xalq arasında qara ot kimi tanınan bitki çiçək açandan sonra o yerdə torpağa toxum səpməzlər, deməli, artıq əkinin vaxtı keçib. Xalq arasında bu gün də belə bir deyim var ki, yazdan bir gün itirən, yaydan bir ay, payızdan isə bir il itirər və yaxud yaz bir tərlan quşdur, onu tutdun, xeyrini görərsən, tutmadın, uçub gedər.

Onu da qeyd edək ki, Naxçıvanda şuma, əkinə çıxmaq bölgələr üzrə, yəni dağlıq və aran zonalar üzrə fərqlənir. Dağ və dağətəyi zonada taxılçılıq və bağçılıq, dağətəyi və düzənlik zonada isə taxılçılıq, bostan və tərəvəzçilik, üzüm və bağçılıq daha intensiv inkişaf etdirilmişdir. Əkinçilik dağlıq zonada dəmyəyə, dağətəyi və düzənlik zonada isə süni suvarmaya əsaslanmışdır. Bölgənin düzən ərazilərində, əsasən, taxılçılıqda payız əkini, dağ və dağətəyi ərazilərdə isə yazlıq əkin daha geniş yayılmışdır. Onu da qeyd edək ki, dağ və dağətəyi ərazilərdə aparılan şumu arandakına nisbətən dayaz (yəni üzdən) edərlər. Bu da onunla əlaqədardır ki, bu zonalarda şeh arana nisbətən çox olduğundan şumu dayaz edərlər ki, Günəş şüası toxuma təsir eləsin. Həm də nəmişlik çox olarsa, toxum tez çürüyər. Aran zonalarında isə şumu nisbətən dərin edərlər ki, səpindən sonra Günəş şüası toxumu qurutmasın, həm də toxum torpaqdan nəm çəkə bilsin.

Şumaçıxmanı əkinçilər bayram kimi qeyd edərdilər. Xalq arasında bu, "Şum bayramı" adlandırılmışdır. Şum bayramında başda ağsaqqal, mötəbər adamlar olmaqla əkinçilər əkin yerinə gedərdilər. Şum bayramında hamı bir-birindən fərqlənməyə çalışardı; birinci olub nəmər, mükafat almaq başucalığı gətirərdi. Bayram şənliyini təşkil etmək və kənd əhalisini bir yerə toplamaq məqsədilə kəndə yaxın olan əkin sahələrindən biri bayram mərasimi üçün mərkəz seçilərdi. Kənddən bir nəfər yaxşı və bacarıqlı əkinçi "bayramın sahibi" olardı. İlk şuma çıxanda plov, hədik bişirib əkin sahəsinə aparıb yeyər, qalanını torpağa səpərdilər. Qoyulan hədik səpiləcək toxumdan bişirilirdi ki, məhsul bol olsun. Bolluq, bərəkət, artıb-çoxalmaq simvolu olaraq kotana qoşulan öküzlərin başına yumurta vurardılar. Qızlar səməni göyərdib əkin sahəsinə çıxardılar. Oxşar inama görə, məhsulun bol olması üçün səpiləcək toxum sahəyə aparılarkən içərisinə nar qoyulardı. Çünki nar keçmişdə bolluq, artıb-çoxalma rəmzi hesab olunmuşdur. Şum işinə ilk dəfə "əl-ayağı uğurlu" insanlar başlayardılar. Və torpağın şumlanması xışla həyata keçirilərdi.

Elə ki şum qurtardı, yubanmadan səpin işinə başlayardılar. İnama görə, hansı il qaranquş tez gələrsə, həmin il taxıl bol olar. Yaşlıların verdiyi məlumata görə, əhali yeni ilin necə olacağını göyərçinlə də bilərmiş. Belə ki, xalq inanarmış ki, göyərçin dəstəsi birinci dəfə əkin, şum sahəsinə enərsə, bu hal ilin məhsuldar, bolluq olacağına, əkilməmiş yerə qonarsa, quraqlıq olacağına işarədir. Səpin vaxtı yerə duman enərdisə, bu, əkinin tez göyərəcəyinə işarədir. Yaz dumanı ruzi, bərəkət hesab olunurdu. Ona görə də "Yaz dumanı bar gətirər", – demişlər əkinçi babalarımız.

Əkinçilik adətlərimizə görə, torpağın əkilməsinin (taxıl) iki qaydası vardır. Birinci "səp suvar", ikinci "suvar səpmək"dir ki, buna da "nov" deyərlər. Bundan başqa, torpağın suvarılıb sonra əkilməsinə həm də "arat əkinçiliyi" deyirlər. Əkin yerini qabaqcadan suvaranda əkin "keşə" gələr ki, bu, məhsulun bol olmasına kömək edər. Yazlıq əkini "səp suvar" sistemi ilə aparılardı. Çünki həmin dövrdə torpaq nəm olur. Naxçıvan bölgəsinin dağ kəndlərində taxıl əkinləri suvarılmaz, çünki əkinçilərin dediyinə görə, "əkin şehlə yetişər". Belə əkin sahələri "demyə", "demistan" adlanır.

Qeyd edək ki, taxılçılıqda payızlıq əkin daha geniş yayılmışdır. Çünki yazlıq əkin həmişə bol məhsul vermirdi. Əkin sahəsinə toxum iki dəfə səpilir, bu, "ikiüzlü səpin" adlanır. Ağsaqqallarımız toxum səpən kimsəyə həmişə məsləhət edərdilər ki, səpin zamanı toxumu arxalı at, yəni sıx at ki, quşların, həşəratların da payı çıxılsın, məhsul yaxşı olsun. Səpin qurtardıqdan sonra səpinçi ovcunu toxumla (buğda, arpa) doldurub onu "quşların, yetimlərin payına" deyib əkin yerinə səpər. Toxum səpilib qurtardıqdan sonra torpağı malalayarlar. Səpin sonrası əkinçilərimiz suvarma işinə başlayarlar.

Suyun əkin üçün nə qədər əhəmiyyətli olduğunu el deyimlərindən də görürük. Məsələn, "göy ağlamayınca, yer gülməz" və yaxud "göy xəsisləşəndə insanlar da xəsisləşər". Xalq arasında çiskin, narın yağış (xalqımız bu yağışa "babagözüçıxaran" da deyir) bolluq-bərəkət nişanəsidir. Bərəkət, bolluq nişanəsi olan yağışlardan biri də "qumquma" yağışıdır ki, bu inanc Ordubad bölgəsində çöl materialları toplayarkən qeydə alınmışdır.

Xalq arasında belə bir deyim var ki, yazın 40-ı çıxandan sonra əkini suvarmasan, əkin məhsul verməz. El sınamalarına görə, yazdan 40 gün getdi, yağış göydən gur tökülsə də, yenə əkinə su verilməlidir. Yazda armud ağacının çiçəkləməsi və ya payızlıq əkinin öz kökünə kölgə saldığı dövr də yaz suyunun vaxtını bildirir. Topladığımız etnoqrafik çöl materiallarına görə, əkinə üç dəfə su verərdilər. Birinci "torpaq suyu", ikinci "xəkov suyu", üçüncü "dənov və ya dən suyu"dur. Culfa bölgəsinin bəzi kəndlərində (Bənəniyar, Saltaq) taxıla verilən üçüncü su "ləngov su" adlanır. Yəni "suyu ləngit ver" mənasında. Ordubad rayonunun Əylis kəndlərində isə bu suya "gülab" suyu deyilir. Düylün kəndində əkinçiliklə suvarma ilə bağlı belə bir deyim var ki, "xəkovu ötür", "dənovu yetir". Yəni üçüncü suyu yaxşı ver və tez versən, onda heç ikinci suya ehtiyac qalmayacaq. Şərur bölgəsinin bəzi kəndlərində isə ikinci suya "yemlik" suyu deyilir. Torpaq suyu əkinə qaraltma üsulu ilə, yəni yavaş-yavaş, "xəkov" suyu taxılı yandırmaqla (taxıla bir müddət su verilmir, bu, yandırma adlanır) verilirdi. Yuxarıda adlarını çəkdiyimiz sular taxıla müəyyən dövrlərdə verilirdi. Məsələn, "dənov" suyunu buğdanın süddüyən və ya mum dövründə, yəni dən bağlayan vaxtı verərdilər. Onu da qeyd edək ki, taxıl zəmilərini suvarmaq üçün əkin sahəsini moralara bölüb suvarardılar. Suvarılma sistemi, adətən, aşağıdan yuxarıya doğru aparılardı.

Yaz fəslinin sonu, yayın əvvəlləri taxıla son su, "dənov" suyu verilərdi. Etnoqrafik çöl materiallarına görə, əkinçilikdə məhsuldarlığı artırmaq üçün əkin sahələrini bir il kəhriz, növbəti il isə çay, bulaq suyu ilə suvarmaq lazım idi. Suvarmada da xalq təqvimindən geniş istifadə edilmişdir. Məsələn, xalq təcrübəsinə əsaslanaraq əkinçilər "dənov" suyunu əkinə sərin və küləksiz vaxtlarda verərdilər. Gecələr suvarma müddətini isə ayın və bəzi ulduzların çıxıb batması ilə müəyyənləşdirərdilər. Suvarma suyunun vaxtını həm də kölgə ilə ölçərdilər. Ona görə də bir növbə üçün nəzərdə tutulmuş vaxta "bir kölgə" deyilir. Bir kölgə isə səkkiz ayaq ölçüsü hesab olunurdu.

Taxıl əkinçiliyi ilə bağlı ən mühüm işlərdən biri də biçindir. Naxçıvanda aran bölgəsində taxıl biçini dədə-baba deyimi ilə Novruzdan yüz gün keçəndən sonra başlanılırdı. Naxçıvan biçinçiləri biçin işlərini ya mərəndi, ya da oraqla həyata keçirərdilər.

Elə ki biçin başladı, biçinçilər taxılı biçib bafa halında bir yerə yığardılar. Bir bafa biçinçinin 4 əl tutumu sünbülü qədərdir; 4-6 bafa sünbül isə bir dərz adlanır. Dərzləri bəndəm eşib bir-birinə bağlayardılar. Sonra dərzlər at, öküz arabalarına yüklənib xırmana daşınardı.

*Bu gün bütün bu işlər insan zəkasının nailiyyətləri olan texnika ilə tez və asan formada həyata keçirilir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan kəndlisi bu gün də torpağın dədə-baba dilini, sirrini unutmamış, minilliyin təcrübəsini qoruyub saxlamışdır.*

**Asəf ORUCOV**
**tarix üzrə fəlsəfə doktoru**

## Respublika Gününə həsr olunmuş konsert



***Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin Musiqi təlimi kafedrasının solooxuma ixtisası üzrə təhsil alan tələbələrinin 28 May – Respublika Gününə həsr edilmiş konserti olub.***

Əvvəlcə Musiqi təlimi kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru İsmayıl Mürsəlov solooxuma ixtisası üzrə təhsil alan tələbələrin uğurlu fəaliyyətləri haqqında məlumat verib.

Konsertdə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələri Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Rauf Hacıyev, Ramiz Mirişli, Tofiq Quliyevin ölməz bəstələri səsləndirilib. Tələbələrdən Nurbəniz Niftəliyeva, Məhərrəm Quliyev, Vəli Nəsirov, Nigar İbrahimova, Bəhruz Quliyev, Rahim Əsgərzadə və başqalarının oxuduğu mahnılar tamaşaçı alqışları ilə müşayiət olunub. Tələbələrin ifa etdikləri musiqi nömrələri onların musiqi nəzəriyyəsinə, sənətkarlıq sirlərinə yiyələnməkdə olduqlarını təsdiqləyib.

İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Mübariz Əsgərov konsertlə bağlı fikirlərini bölüşüb.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, tədbirin 28 May – Respublika Günü ərəfəsində keçirilməsi böyük əhəmiyyət daşıyır. Bu, tələbələrin ictimai-siyasi həyatda fəallığının ifadəsi kimi diqqət çəkir. Azərbaycan Respublikasının Əməkdar artisti, Naxçıvan Dövlət Universitetinin baş müəllimi Gülyanaq Fərzəliyevanın gərgin əməyinin nəticəsində ərsəyə gələn konsertdə tələbələrin musiqi hazırlığından, səhnə mədəniyyətindən razılığını bildirən rektor bu cür konsertlərin keçirilməsini vacibliyini diqqətə çatdırıb.

**Mina QASIMOVA**

## Tələbə Elmi Cəmiyyəti tədqiqat işlərinin yekunlarına həsr edilmiş konfrans



***"Naxçıvan" Universitetində 2014-2015-ci tədris ilində yerinə yetirilmiş Tələbə Elmi Cəmiyyəti tədqiqat işlərinin yekunlarına həsr edilmiş konfrans keçirilib.***

Konfransı universitetin rektoru, professor İsmayıl Əliyev açaraq Tələbə Elmi Cəmiyyətinin tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunmasına, elmi axtarışlar aparmaq vərdişləri əldə etmələrinə şərait yaradan bir qurum olduğunu vurğulayıb. Bildirilib ki, ali məktəblərdə tələbələrin elmi-tədqiqat işlərinin təşkilini və əlaqələndirilməsini Tələbə Elmi cəmiyyətləri yerinə yetirir.

Konfransda ali təhsil ocağının tələbələrindən Müseyib Bayramovun "Biləv Su Elektrik Stansiyasının inşasının Gilançay hövzəsinin ekoloji mühitinə təsiri", Zülfiyyə Novruzovanın "Naxçıvan" Universiteti gənc inkişaf etmiş universitetlərlə müqayisədə", İsmayıl Salahlının "Beynəlxalq uçot sistemində mühasibat uçotunun nəzəri-metodoloji əsasları" mövzularında çıxışları dinlənilib.

Plenar iclas öz işini "Pedaqogika və psixologiya", "Azərbaycan dili və ədəbiyyat", "İqtisadiyyat", "Ümumi tarix", "Təbiət elmləri", "İdarəetmə", "Xarici dillər", "Riyaziyyat və informatika" bölmələri üzrə davam etdirib.

**Nuray ƏSGƏROVA**

## Uşaq musiqi və bədii sənətkarlıq məktəbində ustad dərsi



***Naxçıvan şəhərindəki Ərtoğrol Cavid adına Uşaq musiqi və bədii sənətkarlıq məktəbinin rəsm dərnəyi üzvlərinə "Naturadan rəsm" mövzusunda ustad dərsi keçilib.***

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov tərəfindən keçilən ustad dərsində rəssam dərnək üzvlərini maraqlandıran suallara aydınlıq gətirərək bildirib ki, rəsm prosesində təsvir obyektini – əşyaları bir-birindən cizgilər ayırır. Bu cizgilər vasitəsilə əşyanın fəza hüdudu, forma və ölçüsü müəyyənləşdirilir və bunlar kağıza (materiala) köçürülür. Naturadan rəsm məqsədyönlü müşahidəyə, fikri fəallığa əsaslandığı üçün həmin janra maraq oyadır.

Ustad dərsində Səyyad Bayramov naturadan çəkilən əsərlərin spesifik xüsusiyyətlərindən də söz açıb.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Naxçıvan şəhərinin Bulqan kəndində yaşamış Əhmədov Əhməd Əli oğlunun adına olan JN-305A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Firdovsi küçəsi, ev 62-də yaşamış Cəfərov Fərman Süleyman oğlunun adına olan 3598 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 414